420:1.QXD 20.05.2018 15:49 Page 1


KÜRD xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

# KÜRD DÎPLOMAT

№ 15 (420) 21- 27 May, Gûlan sal 2018
Ji meha şûbatê sala 2003-a tê weşandin
*Həftəlik İctimai-siyasi qəzet*
Rojnama heftename civakî û sîyasî
Qiyməti: / Hêjaye: 40 qəpik


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.
Səbahəddin Eloğlu


Səh. 2

## Prezident İlham Əliyev XXIV Azərbaycan Beynəlxalq Qida Sənayesi və XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olub


Səh. 9

## Nêçîrvan Barzanî: Pêwîste bo yekrêziyê em xwedî karnameyek hevbeş bin!


Səh. 7

## Serok Barzanî: Bihêvî me Hewlêr û Bexda dûrî damargiriyê qunaxeke nû destpê bikin


Səh. 9

## Demîrtaş: Ez ne mexdûr im berxwedêr im


Səh. 8

## Tek: HDP pabendî lihevkirinê nebû


Səh. 5

## Bu gecə evimiz yadıma düşdü


Səh. 8

## Mesrûr Barzanî: Heta PDK hebe, Kurdistan dê parastî be..PDK serxwebûn avêtiye ser milê xwe

## Laçınsız keçən 26 il
Səh. 3

## Navê namzedên li Herêma Kurdistanê bi serketine belav bûn
Səh. 7

## 1905-06-cı illərdə erməni-müsəlman davasında kürd xalqının rolu
Səh. 4

## Израиль и Турция вернули друг другу дипломатов
Səh. 14

## Kürdlər və Kürdüstan
zSəh. 6

## ЕС хочет сохранить “сделку” с Ираном
Səh. 16


Səh. 10

## Əli Qaso əsil el ağsaqqalı idi


Səh. 15

## Ас-Садр отказался формировать коалицию со сторонниками Ирана


Səh. 7

## Rûsya daxwaza derketina hêzên Îranî ji Sûryê dike


Səh. 10

## Barajı hep birlikte yıkarız

420:1.QXD 20.05.2018 15:49 Page 2



# Prezident İlham Əliyev XXIV Azərbaycan Beynəlxalq Qida Sənayesi və XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olub



Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Qida Sənayesi "World Food Azerbaijan 2018", XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro 2018" sərgiləri ilə tanış olub.

Kənd təsərrüfatı naziri İnam Kərimov dövlətimizin başçısına sərgilərlə bağlı məlumat verdi.

Bildirildi ki, ötən illə müqayisədə bu il "WorldFood Azerbaijan" və "Caspian Agro" sərgiləri həm iştirakçıların sayı, həm də ekspozisiya sahəsi baxımından 12 faiz artım nümayiş etdirib və region üzrə bütün ixtisaslaşmış sərgilər arasında ikinci yeri tutur. Bakı Ekspo Mərkəzinin iki zalında və kompleksin açıq platformasında yerləşən sərgilərə dünyanın 34 ölkəsindən 402 şirkət qatılıb və bu şirkətlərin 70 faizini xarici, 30 faizini isə yerli istehsalçı və distribütorlar təşkil edir. Bu ölkələrin ticarət və sənaye palatalarının dəstəyi ilə şirkətlərin böyük milli qruplar ilə iştirakı sərginin vizit kartına çevrilib. Bu il sərgilərdə dünyanın 10 ölkəsini təmsil edən 12 milli və regional qrup iştirak edir.

Prezident İlham Əliyev "Azərsun Holdinq" Şirkətlər Qrupunun stendi ilə tanış oldu. Diqqətə çatdırıldı ki, 1991-ci ildən etibarən Azərbaycanda fəaliyyətə başlayan şirkət qida sektorunda əhəmiyyətli paya malikdir. Şirkətin zavodlarında geniş ixracat şəbəkəsi mövcuddur. Ölkə iqtisadiyyatına xeyli sərmayə qoyan "Azərsun Holdinq" bu müddət ərzində istehlakçıların rəğbətini qazana bilib.

"Grow Group Azərbaycan" şirkətinin stendi ilə tanışlıq zamanı məlumat verildi ki, istixanaların satışı və quraşdırılması sahəsində ixtisaslaşan şirkətin məhsulları ən son standartlara cavab verməklə yanaşı, tam avtomatlaşdırılmış müasir plastik və şüşə istixana komplekslərinin hazırlanmasını əhatə edir. "Grow Group Azərbaycan" 2009-cu ildən başlayaraq beynəlxalq şirkətlərlə əməkdaşlıq şəraitində dünyanın 80-dən çox ölkəsində müasir standartlara cavab verən məhsulları ilə diqqəti cəlb edir.

Sərgidə iştirak edən digər şirkət - "Grand Motors" MMC Azərbaycan bazarının tikinti, kənd təsərrüfatı, istirahət və əyləncə sektorunu hədəf götürüb və fəaliyyətini bu istiqamətdə qurub. Bu baxımdan, "Grand Motors" MMC ağır texnika və yük avtomobillərinin Azərbaycan Respublikasına idxalını və satışını həyata keçirir. Dünyada tanınmış 14 istehsalçının Azərbaycanda rəsmi təmsilçisidir. Bu istehsalçılardan biri də "Nyu Holland"dır. "Nyu Holland" müştərilərə məhsuldarlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsini vəd edir.

"Maschio Gaspardo" şirkəti torpaq və qurunun işlənilməsi, əkin aqreqatları, ot biçini və yığımı, gübrələrin verilməsi üçün nəzərdə tutulan kənd təsərrüfatı avadanlıqlarının istehsalı üzrə liderdir. Şirkət 10 iri istehsal mərkəzindən ibarətdir və dünyada bir sıra kommersiya filialları ilə təmsil olunur.

150 illik tarixə malik "Göygöl şərab zavodu" ASC Azərbaycanın ən qədim şərab emalı müəssisəsidir. 1860-cı ildə yaradılan müəssisənin 507 hektarlıq üzüm təsərrüfatı var. Zavodda istehsal olunan şərab xüsusi materialdan hazırlanan çənlərdə standartlara uyğun saxlanılır. Şirkət müxtəlif növ spirtli və alkoqolsuz sərinləşdirici içkilər istehsalı ilə bazarda önəmli yer tutur.

Sərgidə xüsusi pavilyonla təmsil olunan Gürcüstan bu beynəlxalq tədbirə öz kənd təsərrüfatı məhsullarını təşviq etmək və onların beynəlxalq miqyasda tanıdılması baxımından böyük əhəmiyyət verir. Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi bu sərgidə ilk dəfə 2015-ci ildə iştirak edib və "Ən yaxşı ölkə təqdimatı" sertifikatına layiq görülüb. Builki sərgidə Gürcüstanı 10-a yaxın şirkət təmsil edir.

Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyası 2016-cı ildə fəaliyyətə başlayıb. Ölkəmizdə narçılığın inkişaf etdirilməsini, narın xarici bazarlara çıxarılmasını və ixrac miqyasının yeni bazarlar hesabına genişləndirilməsini qarşıya məqsəd qoyan assosiasiya hazırda "Made in Azerbaijan" brendi ilə məhsul istehsalını təşviq edir.

İtaliyanın "Antonio Carraro" şirkəti istehsal etdiyi kənd təsərrüfatı texnikasının satışının dünya bazarında stimullaşdırılması ilə bağlı tədbirlər görür. Bakıda keçirilən builki sərgiyə şirkətin göstərdiyi maraq da məhz bundan qaynaqlanır.

Yerli şirkətlərdən olan "Gilan Pivot" MMC-nin fəaliyyəti də maraq doğurur. Neftçala Sənaye Məhəlləsinin ərazisində yerləşən MMC-də investisiya dəyəri 1 milyon manat olan istehsal sahəsi yaradılıb. Bu müəssisədə ildə 400 ədəd suvarma sistemi istehsal edilə bilər. Bu isə 20 min hektar əkin sahəsinin suvarılması deməkdir.

Rusiyanın "Rostselmaş" şirkəti də builki sərgidə fəal iştirak edir. Eyni ad altında avadanlıq istehsal edən 13 müəssisədən ibarət olan şirkətin məhsul xəttinə 24 növ texnika və 150-dən çox model və modifikasiya daxildir.

Sərginin fəal iştirakçıları sırasında olan "Fruit Life" şirkəti Avropa İttifaqı və Yunanıstanın köməyi ilə maliyyələşdirilən kampaniyadır və Aİ standartlarına uyğun məhsulların bazara çıxarılmasını təmin edir.

Belarus Respublikası da bu sərgidə bir neçə şirkətlə təmsil olunur. "Belin-ter-ekspo" bu ölkənin milli ekspozisiya və pavilyonlarının rəsmi operatorudur. Sərgidə Belarusun kənd təsərrüfatı və qida sənayesində ixtisaslaşmış şirkətləri öz məhsullarını təqdim edir. Bura Azərbaycanda da fəaliyyət göstərən "Belaruski" ticarət şəbəkəsinin, Belarusun ən iri özəl baytarlıq preparatları hazırlayan şirkətlərindən olan "Beleko-texnika"nı daxil etmək olar.

Sərgidə Yunanıstan ayrıca stendlə təmsil olunur.

Altay diyarı Rusiyada ekoloji təmiz qida məhsullarının ən böyük istehsalçısıdır. Sərgidə ayrıca stendi olan bu diyarın məhsulları ixrac üçün nəzərdə tutulub və bütün beynəlxalq tələblərə uyğundur.

2016-cı ildən fəaliyyətə başlayan "Balxurma" müəssisəsi quru və yarım-quru meyvələrin istehsalı sahəsində öndə gedən, avtomatlaşdırılmış texniki avadanlıqla təchiz olunan, nəzdində yuyulma, soyulma, soyutma və qablaşdırma sexləri fəaliyyət göstərən, müasir standartlara cavab verən müəssisədir.

Avropa bazarında kifayət qədər tanınan Latviya Mərkəzi Südçülər Assosiasiyasının "Milkriver" kampaniyasının məqsədi Aİ ölkələrində istehsal olunan süd məhsullarının rəqabətqabiliyyətliliyinin təşviqi və ABŞ, Birləşmiş Ərəb Əmirliyi, İsrail, Azərbaycan və Çin kimi ölkələrdə bazar payının artırılmasıdır.

İtaliya builki sərgidə bir çox şirkətlə təmsil olunur. Dünyada kənd təsərrüfatı sahəsində məşhur olan İtaliya şirkətləri sərgidə öz kənd təsərrüfatı texnikalarını və məhsullarını təqdim edirlər. Bu ölkənin stendində qida məhsullarının emalı, soyuducu, yuyucu, təmizləyici avandanlıq istehsalı üzrə ixtisaslaşan italyan şirkətləri barədə də geniş məlumat almaq mümkündür.

Türkiyə həmişəki kimi, sərgidə daha çox şirkətlə təmsil olunan ölkələrdən biridir. Qardaş ölkə builki sərgiyə kənd təsərrüfatının və qida sənayesinin bir çox spektrlərini əhatə edən şirkətlərin məhsullarını çıxarıb. Plastik qablaşdırma sahəsində ixtisaslaşan Türkiyənin "Polipa" şirkətinin məhsulları sərgidə xeyli maraq doğurub. "Tekno-Ser" şirkəti isə irriqasiya və istixana komplekslərinin geniş çeşidini təqdim edir.

Sərginin "Holland pavilyonu"nda Niderland Krallığının kənd təsərrüfatı və qida sektorunda fəaliyyət göstərən bir neçə şirkəti təmsil olunur. Onlar öz məhsullarını sərgi ziyarətçilərinə təqdim edirlər.

"ASAN xidmət"in nəzdində fəaliyyət göstərən "ABAD" publik hüquqi şəxs Prezident İlham Əliyevin Fərmanı ilə 2006-cı ildə yaradılıb. Ölkəmizin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək olan ABAD mərkəzlərinin yaradılması istiqamətində görülən işlər artıq öz bəhrəsini verib. Ailə biznesini dəstəkləyən bu mərkəzlər istehsal olunan məhsulların ölkədə və xaricdə satışını həyata keçirməyə xidmət edir.

Fəaliyyət göstərdiyi sahədə vahid dövlət siyasətinin hazırlanmasını və reallaşdırılmasını təmin edən Qida Təhlükəsizliyi Agentliyi qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləməni, risklərin təhlilini, qida məhsullarının qablaşdırma materiallarının dövlət qeydiyyatına alınmasını və digər funksiyaları həyata keçirir. Əsas diqqət genetik seleksiyaya məruz qalmış məhsulların istehlakdan kənarlaşdırılmasıdır.

Yerli "AMORİS" Məhdud Məsuliyyətli Cəmiyyəti meyvə və tərəvəz məhsullarının yetişdirilməsi sahəsində ixtisaslaşıb. Çoxillik təcrübəyə malik olan şirkət yeni bitki növlərinin yetişdirilməsi və "BİS" markası altında müştərilərə çatdırılmasını qarşıya hədəf qoyub.

Litvanın "Svalya" şirkəti Baltikyanı regionda aparıcı mövqe tutur. Avropa İttifaqı və MDB məkanında böyük nüfuz qazanan şirkət süd və süd məhsullarının geniş çeşidinin istehsalı ilə məşğuldur.

Kənd təsərrüfatı texnikalarının ekspozisiyası həm Bakı Ekspo Mərkəzinin daxilində, həm də sərgi kompleksinin açıq platformasında yerləşir.

Sərgidə ölkəmizin kənd təsərrüfatının əsas istiqamətlərindən biri olan heyvandarlıq sahəsindəki nailiyyətləri də nümayiş olunur. "Gilan Kənd Təsərrüfatı" şirkətinin fəaliyyəti və şirkətin müəssisələrində yetişdirilən heyvan cinsləri məhsuldarlığı ilə diqqəti cəlb edir.

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin məqsədi kənd təsərrüfatı məhsulu istehsalçılarının maddi-texniki bazasını yaratmaq, sahibkarları lizinq yolu ilə texnika, mineral gübrə, damazlıq heyvanlar, texnoloji avadanlıq, suvarma sistemi ilə təmin etmək, məhsul istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslərə güzəştli qiymətlərlə aqroservis xidmətlərini göstərməkdir.

"Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi müxtəlif modifikasiyalı Belarus traktorları, MAZ və KAMAZ yük avtomobilləri, avtomobil kranları, müxtəlif təyinatlı qoşqular, ekskavatorlar, xüsusi traktorlar və digər məhsulları ilə Azərbaycan və xarici bazarda böyük nüfuz qazanıb.

İtaliyanın "Landini" şirkəti də kənd təsərrüfatı traktorlarının geniş çeşidini təqdim edir. Müəssisənin Almaniya, Fransa, Cənubi Afrika, Kanada və ABŞ-da filialları fəaliyyət göstərir.

Prezident İlham Əliyev adları yuxarıda qeyd olunan şirkətlərin və ölkələrin stendləri ilə tanış oldu.

Beləliklə, "WorldFood Azerbaijan" və "Caspian Agro" sərgiləri bir daha aqrar sənaye kompleksinin mütəxəssisləri üçün növbəti görüş yerinə çevrildi.

Hər iki sərgi keçirildiyi illər ərzində özünü qida sənayesi üzrə avadanlığın, məhsul və xidmətlərin nümayiş olunduğu, eləcə də müştərilər tapmaq, biznes tərəfdaşları ilə mövcud əlaqələri möhkəmləndirmək və yeni satış bazarlarına çıxmaq üçün imkanların yaradıldığı etibarlı platforma kimi doğrultmağa müvəffəq olub.



# Laçınsız keçən 26 il

## Təxmini hesablamalara görə, işğal nəticəsində Laçın rayonuna 7,1 milyard ABŞ dollarından çox ziyan dəyib

Azərbaycanın dilbər guşələrindən olan Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsindən 26 il ötür.

Laçın zəngin təbii sərvətlərə və əsrarəngiz gözəlliyə malik bir diyardır. Rayonun şərqində Qarabağ silsiləsinin cənub-qərb yamacları, şimalında Mıxtökən silsiləsi uzanır. Cənub-qərb hissəsini Qarabağ yaylası tutur. Ən yüksək dağ zirvəsi Qızılboğazın hündürlüyü 3594 metrdir. Bol su ehtiyatları olan rayonun ərazisindən axan Şəlvə və Minkənd çayları birləşərək Həkəri çayını (uzunluğu 113 kilometr) yaradır ki, bu çay da Araza qovuşur. Ərazisində Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Tiqiq, Turştiqiq, Nurəddin, Nağdalı, Hacıxanlı kimi müalicəvi əhəmiyyətli bulaqlar, zəngin meşələr, yaylaqlar var.



1961-ci ildə rayon ərazisində nadir təbiət komplekslərini qorumaq üçün yaradılan Laçın Dövlət Təbiət Yasaqlığı 20 min hektar, 1987-ci ildə yaradılan Qaragöl Dövlət Təbiət Qoruğu isə 240 hektar ərazini əhatə edirdi. Qoruqda 68 növdən və 27 fəsilədən ibarət bitki örtüyü vardı. Laçın Dövlət Təbiət Yasaqlığının ərazisində cüyür, qaya keçisi, çöl donuzu, ayı, turac, kəklik, qaratoyuq kimi nadir fauna növləri məskunlaşıb.

Laçın rayonu üzrə 33 min 285 hektar meşə fondu torpaqları var ki, bunun da meşə ilə örtülü sahəsi 26 min 647 hektardır. Meşələrdə şam, palıd, vələs, göyrüş, ağcaqayın, qarağac, akasiya, qovaq, söyüd, dəmirqara, armud ağacları üstünlük təşkil edirdi. Rayonda Həkəri çayının sağ sahilində və Zabux kəndində 400 yaşlı 2 ədəd Şərq çinarı, dövlət meşə fondu torpaqlarında 1092 hektar sahəni əhatə edən ardıc, şabalıd və qaraçöhrə ağacları mühafizə olunurdu.



Azərbaycanın bu füsunkar guşəsi 26 ildir ki Ermənistanın işğalı altındadır. 1992-ci il mayın 18-də erməni hərbi birləşmələri 1835 kvadratkilometr ərazisi olan Laçın rayonunu – bir şəhər, bir qəsəbə və 125 kəndi işğal edib, bu yerlərin 60 min nəfərə yaxın sakinini öz doğma torpağından didərgin salıblar. Müharibə zamanı 267 nəfər laçınlı şəhid olub, 66 nəfər girov götürülüb, 120 nəfər sağlamlığını itirib, yüzlərlə uşaq yetim qalıb. İşğal nəticəsində rayondakı 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 96 məişət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri, 13 min 745 yaşayış evi talan və məhv edilib, 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə erməni vandalizminə məruz qalıb. İctimai və şəxsi təsərrüfatlardakı 25 min baş iri və 200 min başdan çox davar, minlərlə arı ailəsi, əhalinin bütün varidatı qarət edilib. Təxmini hesablamalara görə, işğal nəticəsində rayona 7,1 milyard ABŞ dollarından çox ziyan dəyib.

Laçın ərazisindəki 3 civə (Narzanlı, Çilgəzçay, Sarıbulaq), əhəngdaşı, Qoçaz mərmərləşmiş əhəngdaşı, mişar daşı istehsalına yararlı 2 tuf (Ağoğlan, Əhmədli), kərpic-kirəmid istehsalına yararlı Novruzlu gil, həmçinin Quşçu pemza, Yuxarı Həkəriçay qum-çınqıl qarışığı, əqiq, 2 əlvan bəzək daşı, 3 vulkan külü və Minkənd mineral su yataqları 26 ildir ki, ermənilər tərəfindən talan edilir. Nadir ağac növləri olan meşələr qırılaraq Ermənistana daşınır.

Laçın rayonunun ərazisi tarixi, mədəniyyət və memarlıq abidələri, qədim qaya təsvirləri, mağaralar, daş üzərində süjet xarakterli oymalar, kurqan, qala tipli abidələr, məbədlər, çoxlu sayda qəbirüstü abidələr, at, qoç fiqurları, süjetli daşlar, gildən hazırlanmış müxtəlif bəzək, məişət və digər əşyalar, bir tağlı və iki tağlı körpülərlə zəngindir.



Bu ərazidə olan abidələrin əksəriyyəti Qafqaz Albaniyası dövrünün yadigarlarıdır.

Ağoğlan məbədi (IX əsr), Dəmrovlu Pir Məbədi ( XI əsr), Cicimli kəndində Məlik Əjdər türbəsi (XII əsr), Kar Künbəz türbəsi (XVII), Soltanlar kəndində Həmzə Soltan sarayı (1761-ci il), Quşçu kəndində Pir (XII-XIII əsrlər), Uşaq qalası (XV əsr), Şəlvə kəndində məbəd, Mirik kəndi ərazisində qala (XV əsr), Qaranlıq kaha, Bayqara mağaraları, Zeyvə kəndində Soltanbaba türbəsi, Güləbird kəndində Sultanbud məbədi, Minkənd kəndində Alban kilsəsi, X-XIX əsrlərə aid ikitağlı və birtağlı körpülər, Seyidlər kəndində birtağlı körpü (XIX əsr), Pircahan körpüsü, orta əsrlərə aid sənduqə, qoç və at abidələri, dəmir və tunc dövrünə aid kurqanlar, qəbiristanlıqlar və onlarca digər məbədlər erməni vəhşiliyinin qurbanına çevrilib. Rayondakı tarixi, mədəni və dini abidələrin bir çoxu dağıdılıb, bir çoxu isə erməniləşdirilib. Laçının 74 min nəfərdən çox sakini isə 26 ildir ki, respublikanın 59 şəhər və rayonunda, o cümlədən Ağcabədi rayonunun Taxtakörpü ərazisində 84 obada məcburi köçkün həyatı yaşayırlar.



“Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramına və Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarına uyğun olaraq Ağcabədi rayonunun Taxtakörpü ərazisində bütün infrastruktura malik 610 ailəlik üç qəsəbə salınıb. Prezident İlham Əliyev 2011-ci il dekabrın 24-də 552 ailəlik yeni qəsəbənin açılışında iştirak edib. Ərazidə 1500 ailəlik daha bir qəsəbənin tikilməsi nəzərdə tutulur.

Laçın rayonunun bütün icra strukturları Ağcabədi rayonunun Taxtakörpü ərazisində fəaliyyət göstərir. Ötən dövr ərzində 13 min nəfərdən çox laçınlı məcburi köçkünün məskunlaşdığı Ağcabədi rayonunun Taxtakörpü ərazisində geniş tikinti-abadlıq işləri aparılıb, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli iş görülüb. Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası rayon təşkilatı, 121 saylı Laçın Seçki Dairəsi, rayon polis şöbəsi, Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi, təhsil şöbəsi, Malıbəy obasında tibb məntəqəsi, Əhalinin Sosial Müdafiəsi və Məşğulluq Mərkəzləri, “Kapital bank” ASC-nin rayon filialı üçün inzibati binalar, mədəniyyət evi, xəstəxana, 5 ümumtəhsil məktəbi, 4 uşaq bağçası tikilib istifadəyə verilib. Taxtakörpü qəsəbəsində ümummilli lider Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkı, Gənclər parkı salınıb.

Taxtakörpü ərazisinə təbii qaz xətti çəkilib, 256 və 512 nömrə tutumlu iki elektron ATS quraşdırılıb, qəsəbədə və ərazidəki obalarda artezian quyuları qazılıb, modul tipli su təmizləyici qurğu quraşdırılıb. Ərazidə əkin və otlaq sahələrini suvarmaq üçün beton üzlüklü kanal çəkilib, təsərrüfat su kanalı şəbəkəsi yaradılıb.

Bütün bunlara baxmayaraq, laçınlıların ən böyük arzusu doğma yurdlarına qayıtmaqdır. Onlar 26 ildir ki, Laçın niskili, yurd həsrəti ilə yaşayırlar. Əli silah tutan hər bir laçınlı torpaqlarımızın yadelli işğalçılardan azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması üçün Ali Baş Komandanın əmri ilə döyüşə atılmağa hazırdır.

*azertag.az*

420:1.QXD 20.05.2018 15:49 Page 4



# 1905-06-cı illərdə erməni-müsəlman davasında kürd xalqının rolu

**Əvvəli ötən saylarımızda**

Onlar cavab verdilər:

«Görərsən ki, dörd saat ərzində bütün müsəlmanları qırıb məhəllələrini tar- mar etdikdən və Qalanı ələ aldıqdan sonra rusların başına nə gətirəcəyik». Hakim buyurur ki, iddianız çox böyükdür, amma vaxtınız çox azdır. Qımdatlar söylədilər ki, səkkiz saat olmasın, on iki saat olsun. Axır ki, bu sutkada, yəni bir gecə-gündüz ərzində görəcəksən ki, 12 saatdan sonra müsəlmanların böyük məscidində nahar edəcəyik, 24 saatdan sonra isə xan sarayı üzərində öz bayrağımızı qaldırıb, Qalanı tamamilə öz əlimizə alacağıq.Həmin hakim buyurdu ki, bunu mənim ağlım kəsmir, sizin dediyiniz sözlər xəyal və mənasızdır. Bu sözləri eşidən kimi qımdatlardan birisi təkəbbür və qəzəblə planı onun əlindən alıb yoldaşları ilə birlikdə öz evlərinə qayıtdılar. Ermənilər öz tayfasını mənəvi baxımdan bu iğtişaşa hazırlamaqla, bütün küçələrdə və səngərlərdə hazırlıq görməklə bərabər, başladılar müsəlmanlara sataşmağa.Bu işlərdən xəbərdar olan bir erməni övrəti deyir ki, bizim qımdatların bu tədbirdə böyük səhvləri var. Bundan ötrü ki, mən bir kasıb övrətəm, dörd uşağım var. Bir toyuğum neçə gündür azıb, ordaburda yumurtlayır. Artıq üç gündür ki, mən və dörd uşağım o bircə toyuğun öhdəsindən gəlib onu tuta bilmirik. Bir halda ki, beş nəfər bir toyuğun öhdəsindən gələ bilmir, bəs bizim bu qımdatlarımız bu qədər yığılmış erməni ilə milyon-milyon müsəlmanların öhdəsindən necə gələcək? Xülasə, ermənilər öz fitnə-fəsadlarını davam etdirirdilər. Bir gün küçələrin çırağını yandıran Kərbəlayi Məmmədhüseyn adlı bir nəfər səhər tezdən çıraqları söndürərkən üç nəfər erməni Şahlıq körpüsünün yanında bu yazığı nərdivandan yerə salıb neçə yerindən doğradılar. Onun dadfəryadını eşidənlər yüyürüb hadisə yerinə gəldilər. Kərbəlayi Məmmədhüseyn qan içində çapalayırdı, o hələ ölməmişdi. Ondan soruşanda ki, səni bu hala kim salıb. Dedi ki, üç erməni məni xəncərlə beləcə doğradı. Yazıq bu sözləri deyib öldü.

Bu əhvalat müsəlmanlara çox təsir etdi. Müsəlman komissiyaları dum divanına toplaşıb ermənilərdən o yazığın qanını istədilər.

Bu əhvalatdan sonra erməni qımdatları müsəlmanlara poçta ilə göndərilən bağlama və əmanətlərin içərisində silah və sursat olmasından ehtiyat edərək onları gizlincə yoxlayırlarmış.

**QARABAĞIN ŞUŞA ŞƏHƏRİ VƏ ƏTRAFINDA BAŞ VERƏN ERMƏNİ- MÜSƏLMAN İĞTİŞAŞLARI VƏ ERMƏNİLƏRİN MƏĞLUB OLMASI**

Ermənilər öz qarşılarına qoyduğu məqsədə çatmaq üçün durmadan səngərlər tikir, müxtəlif tədarüklər görür, vilayətlərdən və kəndlərdən Şuşaya kömək gətirirdilər. Odur ki,



**Mir Möhsün Nəvvab**

şəhər erməni tayfası ilə dolmuşdu.

Mən, Mir Möhsün Nəvvab evim erməni məhəlləsinə qonşu olduğuna görə qarşıdan gələn təhlükəni nəzərə alaraq şəhərin bir neçə izzətli şəxsləri evimi dəyişməyi mənə məsləhət bildilər.

Həmin xahişə binaən bir gecə əyləşib diqqətlə sual etdim ki, bu davada fəth, nüsrət və qələbə biz müsəlmanlarla olacaq, yoxsa erməni tayfası ilə? İstixarə etdikdən sonra bu növ cavab zühura gəldi:

Qələbə yaxın günlərdə sizinlədir.

Bütün düşmənlər sizin ayağınızın altındadır3 (Beyt fars dilindən sətri tərcümədir)

Sonra bu beyti yazıb qazixanədə yığıncaqda söylədim. Bir para adamlara isə bu beyti yazıb verdim ki, cürətləri daha da artsın, ümidsizlər cəsarətə gəlsinlər.

İkinci dəfə istixarə etdim ki, mənim evim kilsəyə yaxın olduğundan ona zərər dəyər, ya yox? Zərər dəyərsə, köçüm. Belə cavab gəldi:

Baxmayaraq ki, sənin evin kilsəyə yaxındır,

Qəm yemə, axırı xeyirlidir4 (Beyt fars dilindən sətri tərcümədir)

Bundan sonra Allah-təalanın köməyinə arxalanaraq evimdən köçmək fikrindən daşındım. Allahtəalaya dualar oxuyub onun köməyinə ümid bağladım.

Xülasə, seşənbə günü (çərşənbə axşamı) günortadan sonra camadi üs-sani ayının 23-də 1323-cü ildə (16 avqust 1905-ci il) ermənilər hücuma başladılar. Erməni qımdatları dəstə-dəstə olub bir dəstə Köçərli məhəlləsinə, bir dəstə Yuxarı Xəlifəli qapısına, başqa bir dəstə isə meydana tərəf getdilər. Qalan ermənilər isə səngərlərə doldular. Köçərli məhəlləsində qədim bir tayfaya mənsub, gözəl ev- eşiyi olan doxsan yaşlı Abbas bəy adlı bir nəfər yaşayırdı. Köçərli məhəlləsinə gedən dəstənin içərisində olan Çopur bəyin oğlu və Kolya adlı iki erməni Abbas bəyi çağırdılar. Abbas bəy evdən çıxanda ona dedilər ki, sən bizim qonşumuzsan, səninlə bizim işimiz yoxdur. Sonra isə Abbas bəyi sözə tutub tüfənglə vurdular. O biçarə gülledən al qana boyanıb yıxıldı. Ermənilər bir neçə güllə də Abbas bəyin yeganə oğluna və qardaşı oğluna vurub hər üçünü öldürdülər. Bundan sonra onlar evə benzin və neft töküb odladılar. Vurulanların da meyidlərinə od vurdular. Bundan sonra ermənilər üç gün idi ki, gəlin gətirmiş Nuşirəvan adlı bir yazığı da güllə ilə vurub öldürdülər. Sonra isə gəlinin cehizinə və evə, eləcə də meyidlərə neft töküb evlə bərabər yandırdılar. Beləliklə, onlar on beşə qədər evi mal-dövləti ilə yandırıb külə döndərdilər. Ev sahibləri övrət-uşaqla çıxıb qaçsalar da, onlardan iki-üç nəfəri şəhid oldu.

Xəlifəli qapısına gedən erməni dəstəsi isə on evə hücum etdilər. Ev sahibləri xəbərsiz olduqlarından onların arasında çaşqınlıq düşdü. Ermənilər bu evləri gülləbaran etdilər. Bu evlərin sakinləri qaçıb yaxındakı rus kazarmasına doldular. Buna baxmayaraq, üç nəfər erməni güllləsinin qurbanı oldu. Ermənilər isə müsəlmanların mal-dövlətini talan edib evlərinə od vurub yandırdılar.

**Ə L A V Ə:** Meydandakı qımdat dəstəsi isə bazara gəlib əlləri ilə bütün dükanlara işarə etdikdən sonra ermənilər şaraqqa-şaraq dükanları bağlayıb əllərində tüfəng və tapança ilə meydana töküldülər və böyük hay-küy qalxdı. Onlar əvvəlcə iki nəfər Zarıslı müsəlmanı şəhid etdilər.

Ermənilərin bazarında on beşə qədər müsəlman dükanları var idi. Ermənilər hücum edən kimi bu dükanların hər birində bir və ya iki müsəlman var idi. Hücum başlayan kimi onların bir parası qaçdı, bir parası isə dükanları bağlayıb içərisində qaldılar. Bir parası isə yaxın dostluq etdikləri erməni dükan sahiblərinin dükanına və evlərinə pənah gətirdilər. Ermənilər isə onları güllə ilə qarşılayıb hamısını öldürdülər. Ermənilər müsəlman dükanlarının qapılarını açıb içəridəkiləri öldürüb, mal-dövlətlərini qarət və talan etdilər. Quru meyvələri isə yemək üçün səngərlərdə vuruşan qımdatlara göndərdilər. Həmin günü erməni bazarına alış-verişə gəlmiş müsəlmanlardan bir parası qaçıb canını qurtarsalar da, yaşlıları güllələyib öldürdülər. Ermənilər yara alanlara da rəhm etməyib tutduqları yerdə çox əzabla öldürdülər. Bu qırğında ermənilər əllərinə keçən müsəlmanları böyük işgəncə ilə öldürərək onların burun-qulağını, cinsi əlaqə üzvlərini kəsərək başlarına mıx və mismar çalmışdılar. Meyidləri ip ilə sürüyüb dərələrə, xəndəklərə ataraq gizləyir, üstlərində olan pulları isə götürürdülər. Ələ keçən cəsədlərin çoxunda beş-on yerindən yara aldığını görürdülər. Bəzi cəsədləri isə ermənilər od vurub yandırırdılar. Müsəlmanlar isə öldürdükləri adama bir yaradan artıq güllə vurmazdılar. Cəsədlərə isə toxunmayaraq düşdüyü yerdə də qoyub gedərdilər. Dəxi namərdlik edib ermənilər kimi ölənə və cəsədə işgəncə verməzdilər.




Ermənilərin hücum etdiyi həmin gün müsəlmanlar heç nədən xəbərsiz öz işlərində və alverlərində idilər. Müsəlmanlərın əyanəşrəfləri isə Cümə məscidində taziyə məclisində əyləşmişdilər.

Mərhum olmuş Lənbəranlı Mehrəli əfəndinin cənazəsini bir neçə molla ilə Lənbərana göndərdikdən sonra onlar məsciddə taziyə saxlayırdılar. Bu zaman bir neçə nəfər gəlib xəbər verdi ki, nə oturmuşsunuz? Ermənilər dünyanı qarışdırıb, yuxarıda ələ düşəni öldürürlər. Oranın hakimi Xosrov bəy atla gedərkən nökəri ilə birlikdə onu gülləbaran ediblər.

Xalq bu xəbəri eşidən kimi qalxıb məscidi və dükan-bazarı bağlayıb hər yana səs saldılar. Sonra salavat çəkib və «Ya Əli!» deyə qışqıraraq on beş dəqiqə ərzində igidlər və cavanlar silahlanıb, əllərində tüfəng, tapança, qılınc, balta və bel, külüng və ling bazar və küçələrə çıxıb dəstə-dəstə hazır oldular. Onların «ura» sədası hər yana yayıldı.

**Ardı var**

***Səhifəni hazırladı: Tahir Süleyman***

# Dərdli LAÇIN dəyərli şairlərimizin qələmlərində!!!



Ramiz Qusarçaylı

## Ah, Laçınım... Laçınım...

Məğlubiyyətdən yazmaq sözün intiharıdır... Sözün Qələbə şerinin qürurundan böyük qüruru yoxdu...Paylaşdığım bu sətirlər müxtəlif illərdə yazılan şeirlərimdəndir... Gün olsun Laçın qələbəsindən yazdığım şeirlərin sevincini paylaşım...
Laçın yuxumuz çin olsun!

* * *

Çin çıxmayan Laçın yuxum,
Xarı bülbül qara qoxum,
Görüş yeri varım, yoxum
Yaman durub qəsdə nigar
Bəstənigar…

* * *

"Dərbəndi" dərd dənim kimi,
"Laçını" dağ çənim kimi,
"Yurd yeri"nin mənim kimi
Var dəlisi, ay Gilənar, ay Gilənar...

* * *

Öt Laçınım... Laçınım...
Ürək-ürək uçunum.
Ay göylərə uçanım
Köçündə nə var, nə yox...
Deyirlər Laçındasan,
Laçında nə var, nə yox...

* * *

Qaldırın üstümə uçan dağları,
Uçunur Kəlbəcər, Laçın dağları,
O mənfur buxovdan açın dağları
Gecələr dağlara baxa bilmirəm.

* * *

Dərd dəvə haxdan gələr,
Yıxmağa çox dam gələr,
Füzuli, Ağdam gələr,-
Laçın gələsi olsa...

* * *

Kəs, bu şairin də dadına baxaq,
Baxaq, bir şeirinin içində nə var?!.
Varsa, nələr çəkir orda Qarabağ,
Baxaq, Kəlbəcərdə, Laçında nə var?!.

* * *

Kəlbəcər gedəndə, Laçın gedəndə
Bir ərəb bir rusu qınamadısa,
Tarixin Xocalı xəcalətindən
Bağdadın burnu da qanamadısa
Neynəsin bu ərəb dəvəsi ölmüş,
Min ildi azadlıq həvəsi ölmüş...

* * *

Bu buxo¬vdan açın haqqı,
Toxda qalmaz acın haqqı,
Şuşa haqqı, Laçın haqqı
Mən çeçən ola bilmərəm.

* * *

Səni Laçın-Laçın uduzdum, Vətən,
Kəlbəcər-Kəlbəcər uduzdum səni.
Səni naşı-naşı uduzdum, Vətən,
Eybəcər-eybəcər uduzdum səni.



Naibe Yusublu

## Laçın

Tərk edilib çoxu kimi,
Unudulub yuxu kimi,
Sınıq kaman oxu kimi
Qanad açmaz, ağlar Laçın...
Oyanmazmı bəy ərənlər -
Qazan, Basat, Alp Ərənlər?
Hanı sözdən söz dərənlər?
Tuti dilli bağlar, Laçın?
Zirvələrin başı yerdə,
Çən-dumanın yaşı yerdə,
Dağlarının qaşı yerdə
Kimə matəm saxlar, Laçın?
Yoxluğumla barışdınmı?
Qantökənə alışdınmı?
Yad ellərlə sarışdınmı?
Gözümdə sel çağlar, Laçın...
Sarı Aşıq gəzər nalan,
Telli sazın kimdi çalan?
Ötənləri yada salan,
Sinəsini dağlar, Laçın.



Fərqanə Mehdiyeva

## Laçınsız Laçını oynama..qardaş...

Daha nəyin qalıb..haran göynəsin..
Daglara dag çəkdik..Aran göynəsin..
Qoy bir az duz səpim..yaran göynəsin..
Laçınsız Laçını oynama qatdaş..
Didir bir-birini "O'.".BU" nun üstə
Yaman fırlanırsan quyunun üstə..
Tökmə acıgını oyunun üstə..
laçınsız Laçını oynama..qardaş..
Ürəyi daglıdı küsər qız-gəlin..
Bizdən ümidini üzər qız-gəlin..
Dözməz əsirlikdə əsir qız-gəlin..
Laçınsız Laçını oynama qardaş..
Ta keçib..sarmaşıb nahaq dogruna..
Hanı itmiş yuvan basım bagrıma..
Dogranmış kefinə sogan dograma.
Laçınsız Laçını oynama qardaş
..Soyut..ürəyini kaman tarınla.
Çaldır Kərəmini dərd -azarınla.
Yanına salınmış qanadlarınla..
Laçınsız Laçını oynama üardaş..
Çəkək dərdimizi..çəkək..nə ki, var.
Dərdə yüklənməyə bizdə çəki var..
Nəyi oynayırsan..oyna o ki..var..
Laçınsız laçını oynama qatdaş..



Ədalət Bədirxanov

## LAÇIN

Laçında dağların əksini hərdən,
Gözümün önünə gətirirəm mən.
Elə doluram ki, özüm də birdən
Körpə uşaq kimi ağlayıram mən.
Uşaqlıq illərim düşür yadıma,
Böyük bir xatirə yaşayıram mən.
Yaddaşım həmişə yetir dadıma,
Tez-tez o illərə qayıdıram mən.
Aparır xəyallar dağlara məni,
Gəzirəm hər yanı çölü-çəməni.
Görəndə nərgizi, tər bənövşəni
Seyr etmək bir yana, lal oluram mən.
Sanki söyləyir ki, məni də apar,
Qarabağ torpağı qalıbdır naçar.
Məni düşmənlərin əlindən qurtar.
Baxıb həsrət ilə, utanıram mən.
Yuxuda atları çılpaq minirəm,
Çayları gah sağa, sola keçirəm.
Birdən oyanıram baxıb görürəm
Sən demə yerimdə qıvrılıram mən.
Hoçazı, Gərxaçı, Əli bulağın,
Qara göl, İsti su, Kilsəli dağın,
Çal bayır, Dəli dağ, Qırx qız yaylağın,
Elə bil getdikcə unuduram mən.
Eşit fəryadımı ey qarlı dağlar,
Bizi aldatdılar tez çıxartdılar.
Sizdə nə günah var, bütün günahlar,
Bizdədir, özümü qınayıram mən.
Ədalətəm, həsrət məni qocaldır,
Fikrim, xəyallarım, Qarabağdadır.
Sanma ki, həmişə belə qalandır,
Gələr elə bir gun, qayıdaram mən.



Xuraman Camalqızı

## İşğalın il dönümü

Ağır, ezabla keçiri,
işğalın il dönümü.
men yaşaya bilmirem,
Bu didergin günümü.
Ağladıqca çat verir,
Qürurumun sert üzü.
Xoş günlerimiz soldu,
Yaşayıram derd üzün.
Gözümde heyat sönüb,
Yalvarırıq dözüme.
Sanki artıq bir yükem,
Vetenin bu üzüne.
Köçgün sığışmaz oldu,
Qeriblik künclerine.
Problem yaratmışıq,
Qayğısız dinclerine

*18.05.2017.*



İlham Qəhraman

## Bu gecə evimiz yadıma düşdü

Nə vaxtdı sayırıq günləri, ayı,
Nə vaxtdı sağ gözüm Zabux çayıdı,
Nə vaxtdı sol gözüm-Həkəri çayı.
O vaxtdan boğazım Çayqovuşandı.
Bu da bir gecədi belə yaşandı, -
Bu gecə evimiz yadıma düşdü.

Nə yaman uladı yurdda qalan it,
Canavar olacaq sənin balan, it.
Dolan, xəyalımtək yurdda dolan, it,
Bu gecə evimiz yadıma düşdü.

Gəzdim dağlarını cığırınacan,
Üzdüm yollarında çarığımacan,
Qara danamızın axurunacan -
Bu gecə evimiz yadıma düşdü...
Bu gecə gözümdən getmədi Laçın.



Qalib Həsənoğlu

## Laçınım

İçində mən qədər yanırsan axı,
Düşmən sındırdığca, sınırsan axı,
Vallah tanıyırsan, danırsan axı,
Qartallar yuvası olub Laçınım.

Quşda perik düşər bir gün yuvasız,
Qartal qıy vurmaz, olsa qayasız,
İllərdi yas saxlar elsiz, obasız,
Gör neçə bahardı solub Laçınım.

Vətəndən-vətənə boylanıb öləm,
Bir şəhid adını qazanıb öləm,
Mən vətən eşqimdən qısqanıb öləm,
Düşmənlər gülünü yolub Laçınım.

Nə yaşam bilinir üç ildən bəri,
Nə yurdum görünür üç ildən bəri,
Balan hey sürünür üç ildən bəri,
Yetimdi gözləri dolub Laçınım.

Fələkdə həzz alır çox bu zülümdən,
Eşqim bəlli olub mənim külümdən,
Qorxuram bu sənsiz gələn ölümdən,
Fələk öz sazını çalıb Laçınım.

Qismətim bu imiş gərək dərd udum,
Babam canlı tarix, necə unudum?
Zirvədə bayrağdır qızıl Palıdım,
Həsrət yarpaqların salıb Laçınım.

Dostlar birdən məni unudarsınız,
Bax onda ruhumu qorxudarsınız,
Vətən, övladına yas tutarsınız,
Həsənoğlu yurdsuz ölüb Laçınım..!

420:1.QXD 20.05.2018 15:49 Page 6



# Kürdlər və Kürdüstan

## Kürdlərin coğrafiyası və yerləşməsi

Əvvəli ötən sayımızda

Ümumiyyətlə, kürd-erməni ərazisinin qarışıq əhalisinin gələcəkdə ağır fəlakətlər törədə biləcəyi nəzərə alınmayıb. Əgər indiki türk hakimiyyətsizliyi və haqsızlığı götürülsə, onda çoxəsrlik qonşular olan erməni və kürdlər nə səbəbə öz aralarında «modus vivendi»-ni elə yaratmasınlar ki, kürd heyvandarlığı erməni sənətkarlığı və əkinçiliyini tamamlasın. Hələlik çox gərgin milli ehtirasların toqquşma qorxusu olduğu üçün yuxarı qüvvələrin nəzarəti və xeyirxah vasitəçiliyi lazım idi.

Qeyd edək ki, metorianlarda kürdlərin qarışıq yaşadığı Həkaridə keçən əsrin 40-cı illərindən erməni qırğınına bənzər bir şey baş verməyib1. Görünür, köhnə zamanlarda ermənilərlə kürdlərin münasibəti də daha hamar imiş. Erməni yazıçısı Abovyanın onlar haqqında rəyi çox məşhurdur. O, 1846-cı ildə yazmışdı "döyüşkənlik, səmimilik, düzgün, öz başçılarına sonsuz sədaqət, verdiyi sözə dəqiq əməl etmək, qonaqpərvərlik, qan intiqamı və hətta yaxın qohumlar arasında qəbilə düşmənçiliyi, oğurluq, soyğunçuluq ehtirası, qadına sonsuz ehtiram – bütün xalqa xas olan ümumi məziyyət və keyfiyyətlər bunlardır".2 İlk baxışdan görünür ki, bu xarakteristika çox xeyirxahdır. Həta onu bəzi hissələri çox şişirdilib. Məsələn, mən kürd düzlüyü və səmimiyyətinin altından qol

1) Biz xirstianların üstünlük təşkil etdiyi əşirət pestorianlarını deyil, şimalda və şərqdə ayrı-ayrı kəndlərdən danışırıq.

2) Abovyan elə bu mənada kürdlərin «cəngavər» adlandırır. Bax. Lerx, İssledovaniya. 1.28.

3) Və burada Rusiyaya getmiş və heç birsənədi olmayan kreditorlara kürd musa bəy təərfindən borcun qaytarılmasını xatırlatmaq lazımdı, (Mayevski) ya da Azərbaycanda ödəniş vaxt keçmiş kürd mülklərinin erməni tacirlənin əlinə keçməsi.

çəkməyə cəsarət etməzdim. Amma bütün bunlar «yeni erməni ədəbiyyatının atasının» kürdlərə qarşı düşmənçiliyinin olmadığının göstəricisi kimi xüsusilə əlamətdardır.

Kürd məsələsinin ikinci tərəfi kürdlər arasında milli hərəkatın şübhəsiz mövcudluğudur. Onların əksəriyyəti başqa xalqlardan təcrid olunmuş şəkildə cənubda yaşayır. Başında ehtimal ki, ən mühüm kürd qəbilə başçılarının durmağa çalışdığı hərkatın necə təzahür edəcəyini deməк çətindir. Ancaq söhbət nə qədər ki, türklərin kürdləri udmağından xilas olmaqdan gedir siyasi düşüncə və ən sadə həqiqət ari kürdlərə1 öz dilini, xalqını tam müdafiə etmək, yazı və məktəblər yaratmaq imkanı verilməlidir. Bir daha qeyd etmək lazımdır ki, ayrı-ayrı qəbilələr nə qədər vəhşi olsalar da, kürdlər heç də hər hansı bir ibtidai poleneziyalılar kimi zəif ağıllı irq deyillər. Əksinə, onların beynində, görünür, mədəni fikri təfəkkürü mənimsəmək üçün heç bir maneə yoxdur. Çoxlu kürdlər türk, xüsusilə hərbi məktəbini keçiblər. Bu vaxta qədər inkişaf etmiş kürd yazısının olmamasını hər hansı bir anlayışın ifadəsini bacararaq türkcə yazıb oxumaq əvəz etmişdir. Türkiyə və İranda2 kürdlərdən bir sıra məşhur xadimlər çıxıblar. Kürdlər özləri belə hesab edirlər ki, türk ordusunda, daha çox Süleymaniyədən olan minə qədər zabit həmvətənləri vardır. Nəhayət, kürdlərin roluna üçüncü baxış vardır.


В. Ф. Минорскій

КУРДЫ.

